| | |
|---|---|
| Aktın növü | Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı |
| Qəbul edildiyi tarix | 01.12.2020 |
| Qeydiyyat nömrəsi | 52/3 |
| Adı | "Milli Depozit Mərkəzinin xidmət haqları"nın təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 16.12.2020 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.060.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 23202012010523 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 15.12.2020 |

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 16.16.4-cü maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

QƏRARA ALIR:

1. "Milli Depozit Mərkəzinin xidmət haqları" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq departamentinə (Rəna Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

Mərkəzi Bankın sədri — Elman Rüstəmov

"Təsdiq edilmişdir"
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 52/3

"01" dekabr 2020-ci il

# Milli Depozit Mərkəzinin xidmət haqları

*manatla ifadə edilmişdir*

| № | Xidmət növləri | Ödənişin dövriliyi | Ödənişin məbləği[1] |
|---|---|---|---|
| 1. Hesabların açılması | | | |
| 1.1. | Depo və emitent hesabının[2] açılması | birdəfəlik | 5 |
| 1.2. | Nominal saxlayıcı hesabının[3] açılması | | haqq tutulmur |
| 1.3. | Mərkəzi depozitarın üzvləri üçün hesabların açılması | | haqq tutulmur |
| 2. Hesab üzrə çıxarışların verilməsi və məlumatların təqdim edilməsi | | | |
| 2.1. | Qiymətli kağız mülkiyyətçilərinin reyestrindən və ya depo hesabından bir qiymətli kağız üzrə deponentlərə çıxarışların təqdim olunması | birdəfəlik | 1 |
| 2.2. | Bütün qiymətli kağızlar üzrə depo hesabından çıxarışın təqdim olunması | birdəfəlik | 20 |
| 2.3. | Qiymətli kağız mülkiyyətçilərinin reyestrindən emitentə ildə bir dəfə çıxarışın | | haqq tutulmur |

[1] Milli Depozit Mərkəzinin xidmət haqlarına əlavə dəyər vergisi daxil edilmişdir.
[2] Emitent hesabı depozitar sistemində qiymətli kağızların buraxılışı məqsədilə emitentin müraciəti əsasında açılan və qiymətli kağızlara dair müvafiq məlumatları əks etdirən hesabdır.
[3] Nominal saxlayıcı hesabı depozitar sistemində nominal saxlayıcının müraciəti əsasında açılan və müqavilə və ya etibarnamə əsasında investorun tapşırığı ilə və onun xeyrinə qiymətli kağızlara dair hüquqları əks etdirən hesabdır.

| № | Xidmət növləri | Ödənişin dövriliyi | Ödənişin məbləği[1] |
|---|---|---|---|
| | təqdim olunması | | |
| 2.4. | Qiymətli kağız mülkiyyətçilərinin reyestrindən emitentə növbəti çıxarışların təqdim olunması[4] | birdəfəlik | 30 |
| 2.5. | Qiymətli kağızlar üzrə aparılmış əməliyyatlar haqqında məlumatların deponentlərə  təqdim olunması | birdəfəlik | 5 |
| 3. Qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması üzrə emitentlərə xidmətlərin göstərilməsi (hər qiymətli kağız buraxılışı üzrə)[5] | | | |
| 3.1.1. | Fond birjasında listinqdə olan qiymətli kağızların[6] mülkiyyətçilərinin reyestrinin aparılması | illik | nominal dəyərin 0,02%-i, (minimum 50, maksimum 5000) |
| 3.1.2. | Fond birjasında listinqdə olmayan qiymətli kağızların mülkiyyətçilərinin reyestrinin aparılması | illik | nominal dəyərin 0,05%-i, (minimum 50, maksimum 8000) |
| 3.1.3. | Fond birjasında listinqdə olan qiymətli kağızların mülkiyyətçilərinin reyestrinin aparılması üzrə xidmətlərin bərpası | birdəfəlik | gecikdirilmiş günlərin sayına görə nominal dəyərin 0,05%-i (minimum 50, maksimum 7000) |
| 3.1.4. | Fond birjasında listinqdə olmayan qiymətli kağızların mülkiyyətçilərinin reyestrinin aparılması üzrə xidmətlərin bərpası | birdəfəlik | gecikdirilmiş günlərin sayına görə nominal dəyərin 0,1%-i (minimum 50, maksimum 10000) |
| 3.1.5. | Azərbaycan Respublikasının dövlət qiymətli kağızları və Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızlarının mülkiyyətçilərinin reyestrinin aparılması | | haqq tutulmur |
| 3.1.6. | Azərbaycan Respublikası tərəfindən yaradılan və bütün səhmləri dövlətə məxsus səhmdar cəmiyyətlərinin səhm mülkiyyətçilərinin reyestrinin aparılması | illik | 600 |

[4] Xidmət haqqı Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən tutulmur.
[5] Xidmət haqqı dövriyyədə olan istiqrazların nominal dəyərinin ödənilməmiş hissəsinə hesablanır.
[6] Fond birjasında listinqdə olan qiymətli kağızlar emitent və ya onun vəkil edilmiş nümayəndəsinin müraciəti əsasında Azərbaycan Respublikasında fond birjası fəaliyyəti üzrə lisenziyaya malik olan fond birjasının daxili qaydalarına uyğun olaraq listinqə qəbul edilmiş qiymətli kağızlardır.

| № | Xidmət növləri | Ödənişin dövriliyi | Ödənişin məbləği[1] |
|---|---|---|---|
| 3.1.7. | Azərbaycan Respublikası tərəfindən yaradılan və bütün səhmləri dövlətə məxsus səhmdar cəmiyyətlərinin səhm mülkiyyətçilərinin reyestrinin aparılması üzrə xidmətlərin bərpası | | haqq tutulmur |
| 3.1.8. | Səhmdar investisiya fondunun səhm mülkiyyətçilərinin və paylı investisiya fondunun pay sahiblərinin reyestrinin aparılması | | haqq tutulmur |
| 4. Qiymətli kağızların saxlanması üzrə xidmətlərin göstərilməsi[7] | | | |
| 4.1. Emitentlər üzrə (hər qiymətli kağız buraxılışı üzrə) | | | |
| 4.1.1. | Fond birjasında listinqdə olan qiymətli kağızların saxlanması | illik | nominal dəyərin 0,02%-i, (minimum 50, maksimum 5000) |
| 4.1.2. | Fond birjasında listinqdə olmayan qiymətli kağızların saxlanması | illik | nominal dəyərin 0,05%-i, (minimum 50, maksimum 8000) |
| 4.1.3. | Fond birjasında listinqdə olan qiymətli kağızların saxlanması xidmətlərinin bərpası | illik | gecikdirilmiş günlərin sayına görə nominal dəyərin 0,05%-i (minimum 50, maksimum 7000) |
| 4.1.4. | Fond birjasında listinqdə olmayan qiymətli kağızların saxlanması xidmətlərinin bərpası | illik | gecikdirilmiş günlərin sayına görə nominal dəyərin 0,1%-i (minimum 50, maksimum 10000) |
| 4.1.5 | Azərbaycan Respublikasının dövlət qiymətli kağızları və Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızlarının saxlanması | | haqq tutulmur |
| 4.1.6. | Azərbaycan Respublikası tərəfindən yaradılan və bütün səhmləri dövlətə məxsus səhmdar cəmiyyətlərinin səhmlərinin saxlanması | | haqq tutulmur |
| 4.2. Deponentlər üzrə | | | |
| 4.2.1 | Sənədsiz qiymətli kağızların saxlanması | | haqq tutulmur |

[7] Xidmət haqqı dövriyyədə olan istiqrazların nominal dəyərinin ödənilməmiş hissəsinə hesablanır.

| № | Xidmət növləri | Ödənişin dövriliyi | Ödənişin məbləği[1] |
|---|---|---|---|
| 4.2.2. | Sənədli qiymətli kağızların saxlanması | illik | bir ədəd qiymətli kağız üzrə 2 |
| 5. Qiymətli kağızların yerləşdirilməsi üzrə əqdlərin qeydiyyatı[8] | | | |
| 5.1.1. | Dövlət qiymətli kağızlarının və Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızlarının yerləşdirilməsi üzrə əqdlərin qeydiyyatı | birdəfəlik | əqdin məbləğinin 0,01%-i |
| 5.1.2. | Digər qiymətli kağızların yerləşdirilməsi üzrə əqdlərin qeydiyyatı | | haqq tutulmur |
| 6. Qiymətli kağızların tədavülü üzrə əqdlərin qeydiyyatı[9] | | | |
| 6.1.1. | Fond birjasında bağlanan əqdlərinin qeydiyyatı | birdəfəlik | əqdin məbləğinin 0,01%-i (minimum 1, maksimum 1000) |
| 6.1.2. | Birjadankənar bazarda və notariat qaydasında bağlanan əqdlərin qeydiyyatı[10] | birdəfəlik | əqdin məbləğinin 0,05%-i (minimum 3, maksimum 5000) |
| 6.1.3. | Dövlət qiymətli kağızları və Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızları ilə bağlanan əqdlərin qeydiyyatı | | haqq tutulmur |
| 6.1.4. | Qiymətli kağızlara hüquqların vərəsəliklə keçməsi üzrə əməliyyatların qeydiyyatı | | haqq tutulmur |
| 7. Məhkəmə qərarına əsasən mülkiyyət hüququnun ötürülməsinin qeydiyyatı | | | |
| 7.1. | Məhkəmə qaydasında əqd etibarsız hesab olunduğu halda qiymətli kağızları qəbul edən tərəfdən | birdəfəlik | 6-cı hissəyə uyğun olaraq |
| 7.2. | Digər hallarda əqd üzrə əvvəlki tərəflərin birinin xeyrinə olduqda | | haqq tutulmur |
| 8. Qiymətli kağızlara repo əməliyyatlarının qeydiyyatı[11] | | | |
| 8.1. | Dövlət qiymətli kağızları və Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızları ilə aparılan repo əməliyyatlarının qeydiyyatı | | haqq tutulmur |

[8] Xidmət haqqı qiymətli kağızların mülkiyyətçilərindən tutulur.
[9] Xidmət haqqı tərəflərin razılığı ilə hər iki tərəf arasında bərabər bölüşdürülür və ya bir tərəfdən tam həcmdə tutulur. Əqdin tərəflərindən biri Azərbaycan Respublikasının Mərkəzi Bankı və ya İpoteka və Kredit Zəmanət Fondu olduqda, həmin tərəfdən xidmət haqqı tutulmur.
[10] Alış qiyməti nominaldan aşağıdırsa əqdin məbləği nominal qiymət ilə hesablanır.
[11] Xidmət haqqı tərəflərin razılığı ilə hər iki tərəf arasında bərabər bölüşdürülür və ya bir tərəfdən tam həcmdə tutulur.

| № | Xidmət növləri | Ödənişin dövriliyi | Ödənişin məbləği[1] |
|---|---|---|---|
| 8.2. | Digər qiymətli kağızlarla repo əməliyyatlarının qeydiyyatı | birdəfəlik | açılış əqdinin məbləğinin 0,001%-i |
| 9. Emitentlərə göstərilən digər xidmətlər | | | |
| 9.1. | Səhmdarların ümumi yığıncaqlarının təşkili üzrə xidmətlər və korporativ xidmətlər haqqında qiymətli kağız mülkiyyətçilərinin məlumatlandırılması | birdəfəlik | 400 |
| 9.2. | Dividendlərin hesablanması və onların ödənilməsi xidməti | birdəfəlik | ödənilən dividend məbləğinin 0,2%-i |
| 9.3. | Dövlət qiymətli kağızları və Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızları üzrə faizlərin hesablanması və ödənilməsi xidməti | | haqq tutulmur |
| 9.4. | Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar tərəfindən buraxılan istiqrazların faizlərinin hesablanması və ödənilməsi xidməti | birdəfəlik | ödənilən faiz məbləğinin 0,1%-i |
| 9.5. | Digər istiqrazlar üzrə faizlərin hesablanması və ödənilməsi xidməti | birdəfəlik | ödənilən faiz məbləğinin 0,2%-i |
| 9.6. | Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası | birdəfəlik | əməliyyat məbləğinin 0,1%-i (minimum 1, maksimum 3000) |
| 9.7. | Dövlət qiymətli kağızları, Azərbaycan Respublikasının Mərkəzi Bankının qiymətli kağızları və Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların istiqrazlarına beynəlxalq eyniləşdirmə nömrələrinin verilməsi | | haqq tutulmur |
| 9.8. | Digər qiymətli kağızlara beynəlxalq eyniləşdirmə nömrələrinin verilməsi | birdəfəlik | 50 |
| 10. Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətlərinin göstərilməsi[12] | | | |
| 10.1. | İpoteka istiqrazları və girovla təmin edilmiş digər istiqrazlar üzrə[13] | illik | nominal dəyərin 0,065%-i (minimum 500) |
| 10.2. | Qarantiya ilə, dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazlar üzrə | illik | nominal dəyərin 0,01%-i (minimum 500) |

[12] Xidmət haqqı dövriyyədə olan istiqrazların nominal dəyərinin ödənilməmiş hissəsinə hesablanır.
[13] İpoteka istiqrazları üzrə sərəncamçı xidmətləri göstərildikdə, ipoteka istiqrazlarının saxlanılması və mülkiyyətçilərinin reyestrinin aparılması xidmətləri üzrə emitentdən haqq tutulmur.

| № | Xidmət növləri | Ödənişin dövriliyi | Ödənişin məbləği[1] |
|---|---|---|---|
| 11. Qiymətli kağızların girovu ilə bağlı xidmətlər | | | |
| 11.1. | Girovun qeydiyyatı | birdəfəlik | 20 |
| 11.2. | Maliyyə girovunun qeydiyyatı | birdəfəlik | 0 |
| 11.3. | Girov hüququnda dəyişikliyin qeydiyyatı | birdəfəlik | 10 |
| 11.4. | Sonrakı girovun qeydiyyatı | birdəfəlik | 20 |
| 11.5. | Tələbin girov predmetinə yönəldilməsi ilə əlaqədar bildirişin qeydiyyatı | birdəfəlik | 10 |
| 12. Üzvlük haqları | | | |
| 12.1. | Mərkəzi depozitarın üzvü | illik | 3000 |
| 13. Nominal saxlayıcıların hesablarının uçotunun aparılması | | | hər nominal saxlayıcı ilə razılaşma əsasında |